**Azərbaycan Respublikasının**
**Xarici İşlər Nazirliyi**

Haraya: **NDNC**

Surəti: **NBMT, SBRS, SHAQ, SVRŞ, SRYD, SKVT, SCKT, SOTV, SBDP, SBRN, SSOF, SBUE, SRBT, SBYT.**

Göndərilmə nömrəsi: 9/10-4414/04/17 Tarix 27.02.17.

Sənəd necə göndərilir: Elektron poçt

Səhifələrin sayı : 1

Məhdudluq qrifi: Adi

Təciliyi: Təcili

Vacibliyi: Vacib

Bildiyiniz kimi, 2017-ci ilin iyun ayında Cenevrə şəhərində Beynəlxalq Əmək Konfransının 106-cı sessiyası çərçivəsində Beynəlxalq Əmək Təşkilatının (BƏT) Rəhbər Orqanının 2017-2019-cu illər üçün üzvlüyünə seçkilər keçiriləcəkdir. Sözügedən seçkilərdə Azərbaycan Respublikasının namizədliyini nəzərə alaraq aşağıda adları çəkilən ölkələrə qarşılıqlı dəstək təklifləri göndərməyinizi xahiş edirik:

- *Portuqaliya* və *Keniyanın* BMT-nin Kontinental Şelfin sərhədləri üzrə Komissiyanın (CLCS) 2017-2022-ci illər üzrə üzvlüyünə namizədliyini;
- *Livan*, *Niderland*, *Paraqvay* və *Taylandın* 2017-2026-cı illər üzrə Dəniz Hüququ üzrə Beynəlxalq Tribunalın (ITLOS) hakimi vəzifəsinə namizədliyini;
- *Səudiyyə Ərəbistanının* Qadınlara qarşı ayrı-seçkiliyin ləğv edilməsi üzrə Komitənin (CEDAW) 2019-2022-ci illər üzrə üzvlüyünə namizədliyini;
- *Küveyt* və *Sinqapurun* Beynəlxalq Dəniz Təşkilatının (IMO) Şurasına 2018-2019-cu illər üzrə üzvlüyünə namizədliyini;
- *Macarıstanın* İrqi-ayrıseçkiliyin aradan qaldırılması üzrə Komitəyə (CERD) 2018-2021-ci illərdə üzvlüyünə namizədliyini;
- *Polşanın* Beynəlxalq Əmək Təşkilatının (ILO) Rəhbər Qurumuna 2017-2020-ci illər üzrə namizədliyini;
- *İraq*, *Kuba*, *İsveçrə*, *Belçika* və *Çilinin* Narkotik Vasitələr üzrə Komissiyanın (CND) 2018-2021-ci illər üzrə üzvlüyünə namizədliyini;
- *Kanadanın* BMT-nin Statistika Komissiyasının (UNSD) 2018-2021-ci illər üzrə üzvlüyünə namizədliyini;
- *Bolqarıstanın* Cinayətkarlığın qarşısının alınması və cinayət Ədliyyəsi Komitəsinə (CCPCJ) 2018-2020-ci illər üzrə üzvlüyünə namizədliyini;

Yuxarıda qeyd olunanları nəzərə alaraq, müvafiq tədbirlər görməyinizi və nəticələri barədə Mərkəzi məlumatlandırmağınızı xahiş edirik.

**Hörmətlə,**

**Nazir müavini** **Araz Əzimov**

İcraçı: Nəzrin Hüseynli (MBTİ)